# AH, ÜRƏK...ÜRƏK!

**(Elegiya)**

Hər gün görüşürdük onunla. Zarafat gülməcə, atmaca öz yerində. Şəxsən mən könül rahatlığı tapırdım onunla. Bəzi lovğa, təkəbbürlü, vəzifəli şəxslərin arxasınca yalanlar uyduran həmsöhbətlərdən uzaq olurdum. Kimə, nəyə lazımdır şər-böhtan, günaha batmaq...

O gün qəribə hal keçirirdi, sanki məni görmürdü. Gözlərində qəm, kədər hiss edilirdi. Qırıq-qırıq, asta-asta, xırıltıyla dedi:

-Bu gün qələm dostumuz Samirin anasının 40 mərasimidir. Bəlkə gedək onlara?

Razılaşdım. Bu nə haldı, həmişə yolu yeriyəndə quş kimi qanadlanıb uçan Böyükbəy Həbibli indi nəfəsini çiynindən alır, taqəti yoxdu addım atmağa. Əlini sinəsinə qoyub astaca deyir: "Bu zəhrimara qalmış ürəyim yaman məni incidir."

-Bəlkə gedək həkimə?

-Yox, yox, yasdan qalmayaq...

Təziyyədə Şakir Məhbusiylə yanaşı oturmuşdur. Fikrim ondadır nədənsə. Qəribə, mübhəm hal keçirir. Hərdən çöhrəsi işıqlanır. Necə də nurludur, işıqlıdır. Yuxarı baxır, xoş təbəssüm qonur yanaqlarına... Sonra halı dəyişir, gözlərinə kədər, ağrı-əzab kölgə salır. Nəsə özündən xəbərsiz tez-tez daxili sarsıntı keçirir. İstəyirəm ona qaşgözlə nəsə çatdıram, görmür məni. Sonralar bildim ki, o, necə deyim, hansısa gözəgörünməz ilahi qüvvənin əsiriymiş. Bəlkə Əzrayıl adlı mələklə həsbi-hal yaşayırmış, hə?

-Onunla 40 ilə yaxın idi ki, dostluq edirdik. Sadə, səmimi, təvazökar insan idi. Hamı ilə görüşür, xoş ünsiyyət qururdu. Kimisə acılasın, sərt üz göstərsin, şər-böhtan kimi naxələf əməllərlə məşğul olsun, yox, yox, belə qeylü-qallardan tamam uzaq idi. Çətinlik, əzab-əziyyətlə irəm-irəm addımlayıb həyatda ayaq üstə durmağı bacaran Böyükbəy müəllimin bu orijinal fikirləri yaddaşımda bu gün də silinməz izlər qoyub:

-"Qırx doqquz illik jurnalistlik həyatımda çox ağrı-acılar görmüşəm, haqsızlıqlarla üzləşmişəm, yersiz hücumlara məruz qalmışam; əqidəm düz, vicdanım saf olduğu üçün düz yolumdan sarpmamışam.

Həmişə də şairin aşağıdakı bu beyti həyat qayəm olub:

**Xalqımın bir dərdi yüz olduğundan,**
**Tarixi təzədən yazılmalıdır!**
**Qələm nida kimi düz olduğundan,**
**Onun da yazdığı düz olmalıdır!..**

Fikirləşmişəm ki, yolçusu olduğum jurnalist peşəsi ən çətin və şərəfli peşədir. Xalqın hissi ilə yaşamaq hər əlinə qələm alıb "jurnalistəm" deyənlərə nəsib olmur. Həqiqi jurnalist xalqın hissi ilə yaşamağı bacarmalıdır, çünki söz qəlbdən gəlməlidir. Axı, qəlbdən gələn qəlb odunu söndürər "

Həyat yoldaşını, özü qədər sevdiyi qadını itirəndən sonra elə hey düşünür, nə barədəsə götür-qoy eləyib, tez-tez ah çəkirdi. Dərdini dostlarından gizlətmirdi: "Evdə mən uşaqlar üçün həm atayam, həm ana". Kiminsə bir bənd şeirini tez-tez dilə gətirirdi:

**Nə barım var, nə barxanam,**
**Ömür yükü bağlamağa.**
**Allah yarı öldür məni,**
**Yarı saxla ağlamağa.**

...İndi o, haqq dünyasındadır. Mayın 12-də yas təziyyəsindən evə getmişdir. Axşam yatıb, səhər oyanmayıb. Məncə ən gözəl ölüm-infarkt.

Şeirlərinin birində böyük türk şairi Nazim Hikmət infarktdan yox, xərçəngdən ölmək istədiyini yazırdı. İnfarkt xəbərsiz aparır, xərçəng isə bir az vaxt, möhlət verir ki, yarımçıq qalmış işlərini tamamlayasan, son sözünü deyəsən.

İlluziyadı, xəyaldı. Sənə ya möhlət versinlər, ya verməsinlər. Onsuz da ölüm haqqdır və şair demişkən "Biz gəldi- gedərik, sən yaşa dünya".

Mənim şəxsi mülahizəmə görə, Allah və söz gözə görünmür. Külli-kainatı Ulu Yaradan idarə edirsə, söz də ömrün yadigarıdır. Böyükbəy Həbibli sözlə nəfəs alıb-verirdi və qələmlə dostluq eləyənlər onun ən yaxınları idi. Tez-tez hamı ilə görüşür, şeiri, hekayəsi işıq üzü görən adamları təbrik etməyə tələsərdi. Bəziləri kimi qəlbində kinküdurət gəzdirmirdi, həsəd, paxıllıq duyğuları, hissləri ona yad idi.

Sinəsi söz xəzinəsi olan canlı ensiklopediya, mütaliə etməkdə yorulmaq bilməyən insan kimi mənim xəyal dünyamdan silinməyəcəkdir, o. Yazılarında, təhkiyə, üslub axtarışları aparır, oxucunu cəlb eləyən təşbeh, idiomatik ifadələr işlədirdi. Böyükbəy Həbiblinin həmyerlisi, ötən əsrin 50-60-cı illərində ədəbi camiənin diqqətini cəlb edən Əhmədağa Muğanlı haqqında "Region-Press" qəzetində çap edilən sanballı essesi hələ yaddaşlardadır.

...Yas təziyyəsinin üçüncü günüdür. Əliabada tələsirik. Əhməd Qalanın maşınının qabaq oturacağında əyləşmişəm. Hər gün onun gəlib-getdiyi yollarda izini "axtarıram". Arxada hıçqırtı eşidirəm. Kimdi o? Geriyə boylanıram. Şairə Mətanət Poladlı, "ay qardaş" deyib, göz yaşlarını sel kimi axıdır.

...Onun işıqlı xatirəsi bizimlə, qələmlə dostluq eləyən insanlarla yaşayacaq-zaman-zaman.

**Allah Rəhmət Eləsin!**

**Əlibala Rəhimov,**
**publisist, "Qızıl qələm" mükafatı laureatı**